# Müəllimin peşə fəaliyyətində pedaqoji ünsiyyətin effektivliyinə təsir edən sosial-psixoloji amillər

**Ceyhunə Ceyhun qızı Dəmirova**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Azərbaycan Dillər Universitetinin*
*"Psixologiya" kafedrası*
**E-mail:** Ceyhune-91@mail.ru

**Rəyçilər:** psixol.ü.f.d., dos. N.T. Rzayeva,
psixol.ü.f.d., dos. M.S. Əliyev

**Açar sözlər:** ünsiyyət bacarıqları, pedaqoji ünsiyyət, effektiv ünsiyyət
**Ключевые слова:** навыки общения, педагогическое общение, эффективное общение
**Key words:** communication skills, pedagogical communication, effective communication

Təlim fəaliyyəti müəllim və tələbə (şagird) arasında bilik, bacarıq və vərdişlərin mübadiləsinin həyata keçirdilməsi üçün xüsusi əhəmiyyətə malikdir. Lakin, təlim fəaliyyətinin həyata keçirdiyi vəzifələr yalnızca bu sadaladıqlarımızla yekunlaşmır, eyni zamanda daha əhəmiyyətli və daha vacib olanı bu fəaliyyətin həyata keçirdilməsi zamanı müəllim və tələbə (şagird) arasındakı qarşılıqlı münasibətlərin humanistliyi və ünsiyyətin düzgün qurulmasıdır.

Müəllimin nitqi- tələbə və ya şagirdləri mövcud biliklərlə təmin etmək, düşüncə tərzlərini və məzmununu öyrətmək üçün bir vasitədir. Lakin, nitqdən daha vacib amil müəllimin uşaqlarla qurduğu ünsiyyətdir. Tədqiqatçılara görə şagird və tələbələr üçün müəllimin nitqindən, sözlərindən daha çox vacib olan bir amil var ki, o da müəllimin jestləri, mimikası, intonasiyası, baxışları, sosial məsafəsi və tələbəni diqqətlə dinləyib-dinləməməsidir. Ünsiyyətin qeyri-şifahi tərəfləri müəllim və tələbə arasında emosional əlaqənin yaxşılaşdırılmasına xidmət edir. Bir-birini anlamaq, qəbul etmək, hörmət etmək ünsiyyətin verbal və qeyri-verbal tərəfləri baxımından ən yaxşısıdır (1, s. 422).

Müəllim və tələbə (şagird) arasında qurulan belə bir ünsiyyət fəaliyyətinin nə dərəcədə effektiv olması, həmçinin elmi ədəbiyyatlarda uğur anlayışı ilə əvəz edilir. Belə olduğu halda uğurlu ünsiyyətin hansı sosial-psixoloji faktorları vardır sualı ortaya çıxmış olur. Bu suala Kunitsa və onun əməkdaşı belə yanaşmışdır ki, konfliktin olmaması uğurlu ünsiyyət demək deyildir. Çünki, bunun iki səbəbi vardır.

İlk olaraq, açıq və birabaşa konflikt olmasa belə gizli və passiv formada konflikt yaranmış olur, hansı ki, bu halı heç də uğurlu ünsiyyət adlandırmaq olmaz. Digər tərəfdən isə, müasir psixologiyada konfliktlər heç də hər zaman ünsiyyətə zərər vurmur əksinə onun istiqamətini pozitiv tərəflərə yönləndirə bilir. Yəni bir müəllim və tələbə arasında açıq konflikt müşahidə edilməmişdirsə, bu onlar arasında hansısa "məna maneə"sindən yaranamaqla gizli formada başlayan və passiv konfliktə çevrilən problemin olmaması mənasına gəlmir. Belə olduqda isə tərəflərdən birinin ünsiyyət qurmaq üçün etdiyi hər hansısa cəhd uğursuz qalacaq və beləliklə, nə ünsiyyətin effektivlyindən, nə də uğurlu ünsiyyətdən danışmaq mümkün olmayacaq.

Uğurlu ünsiyyət psixoloji təmasın yaranması və bu təmasın qorunub saxlanmasında özünü büruzə verir. Həmsöhbət ilə arasındakı münasibətlərin optimal səviyyəyə gətirilməsi üçün uyğunluğun təşkili və qarşılıqlı razılaşma yolu ilə inkişaf etdirilməsi, hədəfə çatmaq uğrunda hər iki tərəfin də qarşılıqlı fəaliyyətdən məmnunluğu, empatiya, həmsöhbətlərin bir-birini qeyri-

şərtsiz qəbul etmələri, emosional dəstək, sosial bacarıqlar və s. kimi keyfiyyətlər də uğurlu ünsiyyətin faktorlarıdır (2, s. 183).

Bütün bunlarla yanaşı ünsiyyət tərəflərinin şəxsiyyət xüsusiyyətləri, ünsiyyətin həyata keçirildiyi fiziki və psixoloji mühit, ünsiyyətin mövzusu və əhəmiyyəti, ünsiyyət bacarıqları, mədəniyyət faktorları uğurlu ünsiyyətə təsir göstərən bir neçə faktorlardan bir neçəsidir (3, s. 62-63).

İlk olaraq onu qeyd edək ki, effektivlik, effektli anlayışları azərbaycan dilinin izahlı lüğətində təsirlilik, təsir bağışlama qabiliyyəti, təsirli, güclü təsir, lazımi nəticə verən, istənilən nəticə verən, nəticəlilik mənalarında işlənir (4, s. 5). Effektiv ünsiyyət barədə aparılan tədqiqatlardan məlum olur ki, bu termin daha çox peşə sahəsində özünü göstərdiyi üçün işgüzar ünsiyyətə daxil edilir (5, s. 98). Lakin bu fikrin əksini təsdiq edən tədqiqatlar da var. Belə ki, Lavsona görə, vacib olan ünsiyyət prosesində məzmun deyil, onu çatdırmaq forması və göstərilən münasibətdir (6, s. 67).

Sinif daxilində müəllim və tələbə arasında ünsiyyət bacarıqlarından istifadə etmək nəyə görə lazımdır sualına cavab verən tədqiqatçılar hesab edir ki, bir müəllim öz şagirdi və ya tələbəsi ilə adekvat ünsiyyət qura bildiyi təqdirdə biz onu pedaqoji qabiliyyətə sahib peşəkar kimi qəbul edə bilərik. Məlum olduğu kimi müəllim və tələbə arasında olan ünsiyyət fəaliyyəti heç də bir tərəfli deyildir, bu zaman nəinki şagird müəllimi özünə davranış modeli kimi seçir, eyni zamanda müəllim də şagirdlərin davranışları əsasında öz ünsiyyət fəaliyyətini yönləndirə bilər.

Başqa bir mövqedən baxdıqda isə müəllim bacarıq və qabiliyyətləri təkcə onun didaktik funksiyası ilə yekunlaşmır, eyni zamanda onun kommunikativ funksiyası ilə də sıx əlaqədardır. Təlim fəaliyyətinin düzgün qurulması həmçinin müəllim və tələbə arasındakı adekvat ünsiyyət şəraitinin yaradılmasından da çox asılıdır. Sinif daxilində sağlam ünsiyyət qurulubsa bu zaman təlim fəaliyyəti də uğurlu olar, eyni zamanda şagird və ya tələbələr ilə müəllimlər birbirini daha yaxşı anlayar, həmçinin özlərini daha yaxşı ifadə edə bilərlər. Əks halda psixoloqların da qeyd etdiyi kimi hər iki tərəf arasında "məna maneəsi" yaranar, bu isə sağlam ünsiyyətə zərər vuran ən vacib amillərdən biridir. Prof. M.Ə. Həmzəyev hesab edir ki, "məna maneəsi" qarşılıqlı fəaliyyət göstərən bir neçə adamın hər hansısa bir hadisəyə müxtəlif məna vermələri nəticəsində yaranmış qarşılıqlı anlaşılmazlıqdır. Onun isə müxtəlif səbəbləri vardır, buradakı tək səbəb ünsiyyətdə olan adamın qarşısında hansısa tələbin qoyulması və ya tələbi irəli sürənin şəxsiyyətinin deyil, daha çox qoyulan tələbin növü və qarşı tərəfin bu tələbi qoyana qarşı olan münasibətində özünü göstərir (7, s. 79-80).

XXI əsrdə kommunikativ səriştə insanın peşə fəaliyyətinin ən vacib keyfiyyəti və başqa insanlarla lazımi əlaqələrin qurulması, davam etdirilməsi kimi nəzərdən keçirdilir. Müəllimlik peşəsində ünsiyyətin əhəmiyyətli rolunu nəzərə alaraq ünsiyyət texnikasının mənimsənilməsi, ünsiyyət üslubunun seçilməsi kommunikativ səriştənin göstəricisi hesab edilir. Eyni zamanda bu səriştə gələcəkdə uşaqların şəxsiyyətinin tərbiyəsinə, başqaları ilə sosial məhsuldar qarşılıqlı ünsiyyət və münasibət qurmasına, adekvat özünəhörmətin formalaşmasına, iddia səviyyəsinin və özünüqiymətləndirmənin formalaşmasına birbaşa təsir göstərir.

V. A. Slastenin, V. A. Kan-Kalik, A. N. Leontiev, A. A. Lobanov və başqaları kimi müəllim və psixoloqlar pedaqoji ünsiyyət məsələsini araşdırdılar. Pedaqoji mənada aşağıdakı tərifi nəzərdən keçirdik. Pedaqoji ünsiyyət, müəllimin sinifdə və ya ondan kənarda (tədris və tərbiyə prosesində) tələbələri ilə peşəkar ünsiyyətidir, özünün daxili funksiyalarına malikdir və əlverişli psixoloji iqlim əldə etməyə yönəlmişdir (8, s. 295).

Müəllim üçün təkcə ünsiyyəti təşkil etmək deyil, həm də məhsuldar etmək vacibdir. Bu

müəllimin qarşısında duran və yüksək səviyyədə ünsiyyət bacarığı tələb edən ən çətin işlərdən biridir. Buna görə müəllim üçün ünsiyyət həm peşə, həm də funksional əhəmiyyət daşıyır.

Pedaqoji ünsiyyət bacarıqlarının formalaşması ali təhsil müəssisəsində təlim mərhələsində baş verir. Bir pedaqoji universitetin tələbələri arasında pedaqoji ünsiyyət mədəniyyəti formalaşmaqdadır. Gələcək bir mütəxəssisin peşə hazırlığı prosesində (tədbirlərin, təlimlərin, pedaqoji təcrübələrin təşkili) onun formalaşması və təkmilləşdirilməsi üçün imkanlar verilir. Universitetdə oxuduğu müddətdə gələcək peşəkarın ünsiyyətdə özünə inam inkişaf etdirmə qabiliyyətini inkişaf etdirməsinə kömək edəcək bu cür psixoloji şəraitin yaradılması vacibdir. Bunun üçün yalnız müəyyən hərəkətlər və bacarıqlar sistemi deyil, həm də tələbələr, müəllimlər və tələbələr arasında xüsusi bir əlaqənin yaradılması tələb olunur (9, s. 20-21).

Tədqiqatçılara görə uğurlu ünsiyyətin qurulmamasının və çətinliyin yaranmasının səbəblərinə empatiyanın olmaması (alt komponentlər daxil) və ya aşağı olmasına, ünsiyyət prosesində davranış bacarıqları və vərdişlərinin əksikliyinə, sosial mühitdə şəxsiyyətin inkişafının psixoloji mexanizmlərinə, ünsiyyətin sosial-psixoloji təbiətinə, əks olunma və qarşılıqlı təsir mexanizmlərinə bağlıdır (10, s. 286).

Həmçinin məlum olmuşdur ki, empatiya səviyyəsinə görə müəllimlərin üsniyyət tərzində fərqlilik vardır. Belə ki, empatiya səviyyəsi yüksək olan müəllimlər qarşılıqlı hörmətə əsaslanan, demokratik ünsiyyət üslubundan istifadə edir, ünsiyyət tərəfdaşına hörmətlə yanaşır, qarşılıqlı anlama, səmimiyyət, kommunikativ əməkdaşlıq üstünlük təşkil edir. Həmçinin, tələblərdə ünsiyyət qurmaq ustanovkası yaratmaq yüksək özünəinam hissi formalaşdırır. Empatiya səviyyəsi aşağı olan müəllimlər isə peşəkar ünsiyyət zamanı avtoritar üslubdan istifadə etməklə, ünsiyyət tərəfdaşının kommunikativ üstülünyünü və özünəinam hissini boğmağa, manipulyativ vasitələrlə üsntünlük əldə etməyə müəyyən məqsədlər üçün ünsiyyətdən fayda götürməyə çalışır, birbaşa və dolayı yolla iradlar, emosional ifadələrlə mənfi qiymətləndirmə aparır. Konfliklər zamanı emosional həssaslıq görsətməklə, aqressiv və az səviyyədə tolerantlıq nümayiş etdirir. Lakin, empatiya səviyyəsi yüksək olan müəllimlərdə bu kimi problemlərin tam əskinə şahid oluruq. Və əgər bu tip müəllimlər altruist qarşılıqlı münasibət strategiyasına üstünlük verirsə, digər müəllimlər bu prosesdə eqoist startegiyadan çıxış edəcək. Bütün bunlar isə ünsiyyətdə çətinlik yaradan amillər hesab edilir (10, s. 287-288).

Effektiv ünsiyyəti necə qiymətləndirmək olar? Bu suala verilən cavabı tədqiqatçılar belə əsaslandırır ki, bu tamamilə ünsiyyətin məqsədindən asılıdır. Bəzən məqsəd konkret dəyişikliklərə təsir göstərmək deyil, insanlara daha yaxşı məlumat çatdırmağa və ya bu məlumatlar arasında seçim etməyə xidmət edir. Belə hallarda isə uğurlu ünsiyyət fərqli dəyərlərə və vəziyyətlərə sahib insanlar üçün fərqli davranışlara səbəb olacaqdır (11, s. 7671).

Həmçinin bu uğuru təkcə təlim fəaliyyəti ilə əlaqələndirmək doğru olmazdı. Aparılan araşdırma zamanı məlum olmuşdur ki, əksər psixoloqlar bu uğuru həmçinin şagird və ya tələbələrin şəxsiyyətinin formalaşması ilə də əlaqələndirirlər. Çünki, burada vacib məsələ müəllimlərin qarşısındakı subyekti şəxsiyyət kimi qavraması və ona şəxsiyyət kimi yanaşmasıdır. Beləliklə müəllimlər ünsiyyət prosesində şagird və ya tələbələrin fikir və hisslərinə hörmət bəsləyir, onlara adekvat ünsiyyət şəraiti yaratmış olur. Tədqiqatçıların fikrincə əgər bu qarşılıqlı fəaliyyət prosesi birtərəfli həyata keçsəydi bu zaman hər hansısa interaksiyadan danışmaq çətin olardı. Şagird və ya tələbənin təlim fəaliyyətinə aktiv qoşulması, bu ünsiyyət mühitinin yaradılması və davamlılığı göründüyü qədər müəllimin ünsiyyət bacarıqlarından asıldır (12, s. 24).

Beləliklə, müəllimlərin peşə fəaliyyətinin yalnızca pedaqoji ünsiyyətin və təlim fəaliyyətinin həyata keçirilməsindən ibarət olmadığını, müəllim və tələbə arasındakı ünsiyyətin effektiv

olmasının, uğurlu olmasının daha yüksək əhəmiyyət daşıdığı qənaətinə gəlinmişdir. Və bütün bunlarla yanaşı müəllimin peşə fəaliyyətində effektiv ünsiyyətin formalaşması üçün zəruri olan bir sıra sosial-psixoloji faktorların diqqətdə saxlanılmasının əhəmiyyəti vurğulanmışdır.

**Məqalənin aktuallığı.** Qloballaşma şəraitində insan-insan münasibətlərinin daim inkişaf etməsi yeni psixoloji problemlərlə yanaşı ünsiyyət prosesinin də təkmilləşməsinə şərait yaradır. Belə olan halda isə insanlar bir-birinə qarşılıqlı formada təsir edə bilmək üçün effektiv ünsiyyət vasitələrindən istifadə etmək məcburiyyətində qalırlar. Xüsusilə təlim fəaliyyətində müəllim və tələbələrin rolunu nəzərə alsaq, ünsiyyət prosesinin uğurlu olması üçün tərəflərin hər biri özünəməxsus üsullarla bu prosesə daim töhvə verməyə çalışır.

**Məqalənin elmi yeniliyi.** Məqalədə ilk dəfə effektiv ünsiyyət və uğurlu ünsiyyət terminləri birgə götürülərək onların məzmunu elmi əsaslarla izah edilmiş və beləliklə müəllimlərin öz peşə fəaliyyətində, hansı sosial-psixoloji fakorların effektiv ünsiyyəti formalaşdırmasına dair məsələlər aşkara çıxarılmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə nəinki, elmi tədqiqat işlərində istinad kimi müəllim və professor heyəti üçün əsaslı material olacaq, eyni zamanda məqalənin nəticələrindən müəllimlər öz peşə fəaliyyətində effektiv ünsiyyəti qurmaq üçün zəruri olan bilik və bacarıqlara da yiyələnəcəklər.

## Ədəbiyyat

1. Бодалева А. А. Психология общения. Энциклопедический словарь: Когито-Центр: М., 2011, с. 944.

2. Куницына В. Н., Казаринова Н. В., Погольша В. М. Межличностное общение. М., 2002. с.298.

3. Communication Research Associates Communicate! Workbook for interpersonal communication. (7th Ed). Kendall Hunt Publishing Company, 2004. pp.286.

4. Azərbaycan Sovet Ensiklopediyası. 10 clddə, IV cild. Bakı, 1980, 592 s.

5. Kelvin-Iloafu E.L. The Role of Effective Communication in Strategic Management of Organizations. International Journal of Humanities and Social Science. Vol. 6, No. 12; December, 2016. pp. 93-99.

6. Lawson K.M.A. Successful Communication (Business Buddies). New York: Barron's Educational Series Inc, 2006, p.240.

7. Həmzəyev M.Ə., Əmiraslonava S.F. Ünsiyyətin psixologiyası. Bakı: Nurlan, 2007, s.178.

8. Лобанов, А.А. Основы профессионально-педагогического общения: Учебное пособие для студ. высш. пед. учеб. заведений. М.: Академия, 2002, 145 с.

9. Ганичева, И. А. Развитие коммуникативной компетентности студента в процессе педагогической практики в вузе // Высшее образование сегодня, 2014, № 12, с. 19-22.

10. Кузнецова Л. Э., Морозова Е.Д. Роль эмпатии личности в формировании склонности к затрудненному общению // Молодой учёный, 2017, № 8, с. 286-288.

11. Fischhoff B. Evaluating science communication. PNAS. April 16. Vol1 16, 2019, № 16. pp.7670-7675.

12. Çetinkanat A.C. Öğretmenlerin iletişim becerileri. 3.Ulusal sınıf öğretmenliği sempozyumu. 23-24 Ekim, Adana, Çukurova Üniversitesi, 1997. s.17-26.

**Дж.Дж. Дамирова**

## Социально-психологические факторы, влияющие на эффективность педагогического общения в профессиональной деятельности учителя

### Резюме

В статье делается вывод о том, что профессиональная деятельность учителей - это не только осуществление педагогического общения и учебной деятельности, но и важность эффективного и успешного общения между учителем и учеником. При этом подчеркивается важность уделения внимания ряду социально-психологических факторов, необходимых для формирования эффективного общения в профессиональной деятельности учителей.

**C.C. Damirova**

## Socio-psychological factors influencing the effectiveness of pedagogical communication in the professional activity of a teacher

### Summary

The article concludes that the professional activity of teachers is not only the implementation of pedagogical communication and training activities, but also the importance of effective and successful communication between teacher and student. At the same time, the importance of paying attention to a number of socio-psychological factors necessary for the formation of effective communication in the professional activities of teachers was emphasized.

**Redaksiyaya daxil olub:** 30.11.2020